RƏHİLƏ BƏDƏLOVA
*Bakı Dövlət UniversitetininPolitologiya və sosiologiya kafedrasının dosenti*

# İNSAN HÜQUQLARI: ONUN MƏNBƏYI VƏ TƏSNIFATI

Bütün insanlar bərabər hüquqda doğulurlar. Bu ayrılmaz və özgəninkiləşdirilə bilməyən hüquqlar insana sadəcə olaraq o insan olduğu üçün məxsusdur. Əxlaqi xarakterli bu postulatlar inkişaf edərək bu gün bizim "İnsan Hüquqları" adlandırdığımız məhfum kimi ifadə edilir. Əllər keçdikcə onlar dövlətlərin və beynəlxalq birliyin qanun yaradıcılığı prosesində yuridik hüquqlar formasını almışlar. Bu yuridik hüquqların əsasını həmin qanunlar subyektinin razılığı təşkil edir. Bəşəriyyət bütün tarix boyu şəxsiyyətin ləyaqətinə hörməti təmin etmək məqsədilə səylər göstərilmişdir. İnsan Hüquqları konsepsiyasının irəli sürülməsi və təkmilləşdirilməsi xidməti müxtəlif mədəni və dini ənənələri təmsil edən mütəfəkkirlərə məxsusdur. Bu ideyanın inkişafına dövlət xadimləri və hüquqşünaslar qiymətli töhvələr vermişlər. Nəticədə fərdin hüququnun müdafiəsini müəyyənləşdirən yazılı normalar tədricən müxtəlif ölkələrin qanunvericiliyinə daxil edilmişdir.

Bu gün dünya birliyi tərəfindən hər bir insan hakimiyyətin mənbəyi və siyasətin ilkin subyekti kimi tanınmışdır. İnsan hüquqlarını qorumaq və onlara hörmət etmək, bu sahədə müvafiq siyasət həyata keçirmək hər bir ölkənin daxili işi kimi deyil, ümumi qayğı və məsuliyyət predmeti kimi qəbul olunur. Hər bir ölkədə hüququn aliliyi ilə yanaşı insan hüquqları dövlətin demokratikliyinin əlaməti və beynəlxalq əməkdaşlığın demokratik əsasını təşkil edir. Demokratiya və insan hüquqlarının birbaşa və əks əlaqəsi olduqca sadədir: insan hüquqlarına hörmət olmadan demokratiya ola bilməz və əksinə, əsl demokratiyanın bərqərar olması insan hüquqlarının təmin edilməsi üçün şərait yaradır.

İnsan hüquqlarının dövlətin kontitusiyasına daxil edilməsi konsensusun və siyasi stabilliyin əldə olunması prosesinin başlanğıc nöqtəsidir. Onların konstitusiya səviyyəsində təsbit edilməsi ayrı-ayrı hakimiyyət strukturları və eləcə də bütövlükdə dövlət hakimiyyəti tərəfindən hakimiyyətdən sui-istifadə imkanlarını məhdudlaşdırır və totalitar idarəetmə formasının təşəkkülünün qarşısını alır.

Insan hüquqların inkişafı prosesi bir-birinə qarşılıqlı təsir edən istiqamətlərdə baş verir. İnsan hüquqlarının milli sistemləri fərdin azadlıqlarının həyata keçirilməsinə özünü bəzən spesifik olan yanaşmasını müəyyən edir.Beynəlxalq səviyyədə isə insan hüquqları standartlarının unifukasiyası baş verir. Beləliklə, tamamilə aydın görünür ki, bir tərəfdən, insan hüquqları problemi hər bir insana aid olan mövzudur, digər tərəfdən isə bu problem ayrı olaraq bir dövlət çərçivəsidə mövcud deyil, beynəlxalq hüquqi siyasi fəaliyyətin obyektidir və onun tədqiqi sahəsinin genişləndirilməsi ictimai proseslərin müasir inkişafında vacib istiqamət kimi çıxış edir.

İnsan hüquqları və onların müdafiəsinin işlənib hazırlanması ideyaları zaman keçdikcə qanunverici xarakter almışdır. Bu yolda bir sıra vacib mərhələləri qeyd etmək lazımdır, məsələn, əgər söhbət İngiltərədən gedirsə, onda Azadlığın Böyük Xartiyası (1215-ci il), Hüquqlar haqqında ərizə (1628) və Hüquqlar haqqında Bill (1689) kimi sənədləri yada salmaq lazımdır. Hələ çox əvvəl meydana gəlmiş təbii qanun ideyası XVII əsrdə təbii qanunların hüquqi qanunlar kimi qəbul edilməsində ifadə olunurdu.Və bu qanunlar ilk dəfə milli konstitusiyanın bir hissəsinə çevrilərək dövlətlə ayrıca insan arasındakı müqavilə münasibətini əks etdirir və qeyd edir ki, dövlət hakimiyyəti azad şəxsin razılığına əsaslanır. İnsan və vətəndaş hüquqları haqqında 1789-cu il Fransa bəyan-

naməsi və Hüquqlar haqqında 1791-ci il Amerika Billi məhz bu konsepsiyaya əsaslanmışdır. XIX əsrdə bu prinsip bir sıra dövlətlər tərəfindən qəbul edilmişdir (1, s. 27).

Siyasi hüquqlarla yanaşı sosial və iqtisadi hüquqları da tamamilə tanımağa başladılar. Lakin milli konstitusiyalarda insan hüquqlarının qəbul edilməsinə baxmayaraq, onlar bir sıra hallarda qanunvericiliklə və ya əsassız olaraq nəzərə alınmır və ya ləğv edilirdi. İnsan hüquqlarının hüquqi statusu olmasına baxmayaraq, elə dövlətlərin özləri tərəfindən pozulurdu.

İnsan hüquqlarına aid ilk müqavilələr din azadlığının tanınması (məs.1648-ci il Vestfal müqaviləsi) və köləliyin ləğv olunması ilə bağlı idi. Köləlik hələ 1815- ci il Vyana konqresində pislənmişdi, XIX əsr köləliyin ləğv edilməsi barədə (1862-ci il Vaşinqton müqaviləsi, 1867 və 1890-cı illər Brüssel konfranslarının yekun sənədləri və 1885-ci Berlin sənədləri) bir sıra beynəlxalq müqavilələr imzalanmışdır. Beynəlxalq əməkdaşlığın digər sahəsini isə müharibənin qaydaları və qanunları haqqında hüquqi normaların (1856-cı il Paris bəyənnaməsini, 1864-cü il ilk Cenevrə konvensiyasını, 1906-cı il ikinci Cenevrə konvensiyasını, habelə 1899 və 1907-ci illər Haaqa konvensiyasını yada salmaq lazımdır) işlənib hazırlanması təşkil edir. 1864-cü ildə Beynəlxalq Qırmızı Xaç Komitəsinin yaradılması bu sahədə inkişafa xeyli kömək etdi (3, s.76)

Birinci Dünya müharibəsindən sonra belə bir fikir gücləndi ki, insan hüquqlarına riayət etmək üçün beynəlxalq təminat tələb olunur və ayrı-ayrı hökumətlər bunu təmin etmək iqtidarında deyillər. Birinci Dünya müharibəsidən sonra yaradılmış ilk hərtərəfli hökumətlərarası təşkilat olan Millətlər Cəmiyyətinin mandatında insan hüquqları haqqında qeyd olunmamasına baxmayaraq, cəmiyyət beynəlxalq vasitələrdən istifadə edərək insan hüquqlarını müdafiə etmək üçün təşəbbüslər etmişdir. Lakin azsaylıların müdafiəsi üçün bir neçə ölkədə müəyyən təminat verildiyinə görə onun maraq dairəsi məhdudlaşmışdır.

XX əsrin əvvəlində sənaye fəhlələrinin əmək şəraitini müəyyənləşdirmək üçün yaradılmış standartlar 1919-cu ildə təsis edilmiş Beynəlxalq Əmək Təşkilatı tərəfindən işlənib hazırlanmış beynəlxalq razılaşmaların obyektinə çevrildi. 1926-ci il sentyabrın 25-də Cenevrədə imzalanmış Köləliyin ləğv edilməsi haqqında beynəlxalq konvensiya köləliyin ləğvinə yönəldilmiş səylərə yekun vurdu. Qaçqınları müdafiə üzrə konvensiyalar 1933 və 1938-ci illərdə qəbul edilmişdir. Lakin bütün bu hadisələrə baxmayaraq, insan hüquqları haqqında beynəlxalq hüquq iki dünya müharibəsi arasındakı müddətdə də üzə çıxmadı. XX əsrin 20-30-cu illərdə yaradılmış totalitar rejimlər elə öz ölkələrində insan hüquqlarını kütləvi şəkildə pozurdular. İkinci Dünya müharibəsi dövründə dünya insan hüquqlarının kütləvi şəkildə pozulmasının, insan həyatına və ləyaqətinə məhəl qoyulmamasının, irqi və ya milli mənsubluğuna, habelə dini etiqadına görə əhalinin xeyli hissəsinin məhv edilməsi cəhdlərinin şahidi olmuşdur. Nəticədə məlum olmuşdur ki, insan hüquqlarını kodifikasiya və müdafiə edə biləcək beynəlxalq sənədlərin çox gərəkli zəruriliyi üzə çıxmışdır (3, s.70).

İlk dəfə bəşəriyyətə qarşı cinayətə görə cavabdehlik 1945-46-cı illərdə Nürnberq beynəlxalq hərbi tribunalında tətbiq edildi. Faşist dövlətinin məmurları başqa dövlətə qarşı törətdikləri cinayət üstündə yox, ayrıca şəxslərə qarşı törədilmiş cinayətlərinə görə məsuliyyətə cəlb olunub, layiqincə cəza aldılar.

Bu gün dünyanın istənilən ölkəsində bir hakim rejim insan hüquqlarını sistematik pozursa, bu artıq həmin rejimin milli və beynəlxalq qeyri-legitimliyinə ən güclü sübut kimi qiymətləndirilir. Bu məsələlərdə olduqca əhəmiyyətli yer BMT sənədlərində ayrılır. Bu təşkilat dövlətlər üzərində duran "ümumdünya hökuməti" olmasada, özünün ilk günündən bəri, universal insan hüquqlarının rəsmiləşdirilməsinə və bütün ölkələrdə müdafiəsinə yönəlmiş böyük iş aparır.

İnsan hüquqları sahəsindəki beynəlxalq öhdəliklər, əsas etibarilı, müqavilə mənşəlidir. Müqavilənin üstünlüyü ondadır ki, o,dövlətlərin konkret insan hüquqlarının müdafiəsi ilə bağlı öhdəliklərini dəqiq müəyyən edir və ən əsası, bu öhdəliklərin yerinə yetirilməsini təmin etməli olan xüsusi mexanizm və prosedurlar nəzərdə tutur. Hal-hazırda insan hüquqları sahəsində 70-dən artıq beynəlxalq müqavilə mövcuddur. Bundan əlavə, Beynəlxalq Əmək Təşkilatı çərçivəsində bəzən sosial ədalətin "Corpus Yuris"-i adlandırılan çoxlu sayda konvensiyalar qəbul olmuşdur.

İnsan hüquqları sahəsindəki mövcud beynəlxalq müqavilələri 4 koteqoriyaya bölmək olar:

1)Ümumi müqavilələr. Bu müqavilələrdə demək olar ki, bütün əsas insan hüquqları və ya onların böyük bir hissəsi təsbit olunur. Ümumi müqavilələr həm universal həm də regional səviyyədə mövcuddur. Universal müqavilələrə İqtisadi, sosial və mədəni hüquqlar haqqında 1966-ci il Beynəlxalq Paktı və Vətəndaş və siyasi hüquqlar haqqında 1966-ci il Beynəlxalq Paktı aiddir. Ümumi regional müqavilələr aşağıdakılardır: İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında 1950-ci il konvensiyası (Avropa İnsan Hüquqları Konvensiyası) Avropa Sosial Xartiyası; Amerika İnsan Hüquqları Konvensiyası; İqtisadi, sosial və mədəni hüquqlar sahəsində Amerika İnsan Hüquqları Konvensiyasına 1988-ci il əlavə Protokolu; İnsan və xalqların hüquqları haqqında 1981-ci il Afrika Xartiyası

2)Xüsusi müqavilələr. Bu müqavilələr konkret insan hüquqlarının müdafiəsinə yönəlmişdir. Xüsusi müqavilələr də həmçinin universal və regional səviyyədə bağlanır. Universal müqavilələr əsasən bunlardır: Genosid cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında 1948-ci il Konvensiyası; 1926-ci il Köləlik Konvensiyası; Köləliyin, qul ticarətinin və köləliyə oxşar institut və adətlərin ləğv edilməsi haqqında 1956-ci il əlavə Konvensiyası; Zorla işlətməyin ləğv olunması haqqında 1957-ci il 105 saylı BƏT Konvensiyası; İşgəncə digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza növləri əleyhinə

1984-cü il Konvensiyası. Regional səviyyədə bağlanmış xüsusi müqavilələrə bir sıra misallar gətirək: İşgəncənin və qeyri insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzanın qarşısını alınmasına dair 1987-ci il Avropa Konvensiyası; İşgəncənin qarşısının alınması və cəzalandırılmasına dair 1985-ci il Amerika Konvensiyası; Sosial təminat haqqında 1972-ci il Avropa Konvensiyası.

3) Ayrı-ayrı qrupların müdafiəsinə yönəlmiş müqavilələr. Cəmiyyətin ayrı-ayrı təbəqələrinin hüquqlarını qorumaq məqsədi güdən bu müqavilələrə misal olaraq aşağıdakıları göstərmək olar: Qadınların siyasi hüquqları haqqında 1952-ci il Konvensiyası; Uşaq hüquqları haqqında 1989-cu il Konvensiyası; Bütün miqrant-işçilərin, onların ailə üzvlərinin hüquqlarının müdafiəsi haqqında 1990-ci il Beynəlxalq Konvensiyası; Miqrant işçilərin hüquqi statusu haqqında 1977-ci il Avropa Konvensiyası; Milli azlıqların müdafiəsinə dair 1995-ci il Çərçivə Konvensiyası; Müstəqil ölkələrdə köklü və tayfa xalqlarına dair 1989-cu il 169 saylı BƏT Konvensiyası və s.

4) Ayrı-seçkilik məsələsinə aid olan müqavilələr. Bu müqavilələr irqi və ya cinsi əsaslara görə, təhsil, işədüzəlmə və s. sahələrdə ayrı-seçkiliyin qarşısını almaq məqsədi daşıyır. Bu məsələ ilə bağlı universal müqavilələr möcuddur; məsələn: İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv ediməsi haqqında 1965-ci il Beynəlxalq Konvensiyası; Aparteid cinayəti ilə mübarizə və onun cəzalandırılması haqqında 1973-cü il Beynəlxalq Konvensiyası; Qadınlara qarşı ayrı-seçkilkiyin bütün formalarının ləğv edilməsi haqqında 1979-cu il Konvensiyası; Təhsil sahəsində ayrı-seçkilik əleyhinə 1960-cı il YUNESKO Konvensiyası və s (1., 45-46).

İnsan hüquqlarının beynəlxalq-hüquq müdafiəsi sahəsində ***adət normalarının** da* müəyyən rolu var. Beynəlxalq hüquqi adətin bu sahədə rolu müvafiq müqavilə müddəalarının qeyri-iştirakçı dövlətlərə şamil edilməsi və həmin müqavilələrdə nəzərdə tutulmamış hüquqi müdafiə vasitələrinin təmin edilməsi ilə məhdudlaşır. Əsas insan hüquqlarının müəyyən hissəsi artıq ümumi beynəlxalq adət hüququnun bir hissəsinə çevrilmişdir və hər hansı bir müqavilənin iştirakçısı olub-olmamasından asılı olmayaraq bütün dövlətlər üçün məcburidir. Məs., indi heç bir dövlət Vətəndaş və siyasi hüquqlar haqqında 1966-cı il Paktında iştirak etmədiyini bəhanə gətirərək (belə dövlətlərin sayı 40-dan artıqdır), işgəncələr tətbiq edə bilməz və ya şəxsi özbaşına və ya qanuni əsas olmadan həyatdan məhrum edə bilməz. Dövlətlərin aşağıdakı hüquqa zidd əməlləri beynəlxalq adət hüququnun pozuntusu kimi tövsiyə edilə bilər: genosid; aparteid; köləlik; bir sıra insan hüquqlarının aşağıdakı sistematik və ya kobud pozuntulara şəxsin qanunsuz həyatdan məhrum edilməsi;işgəncə; irqi ayrı-seçkilik; uzunmüddətli özbaşına həbs; zorla müəyyən ərazidən çıxarılması; minimal məhkəmə təminatlarının pozulması; qanunun geriyə tətbiqi (5, s. 170)

İnsan hüquqları sahəsində ***tövsiyə xarakterli sənədlər*** köməkçi hüquq mənbəyi kimi böyük əhəmiyyətə malikdirlər. Bu cür sənədlərə misal olaraq aşağıkadakıları göstərmək olar. BMT Baş Assambleyasının qətnamələri, o cümlədən bu qətnamələrlə qəbul olunmuş aktlar (məs."Dözümsüzlüyün və din və ya əqidələr əsasında ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" 1981-ci il Bəyannaməsi; Yetkinlik yaşına çatmayan şəxslərlə ədalət mühakiməsinin həyata keçirilməsinə dair BMT-nin Minimal standart qaydaları 1985-ci il;Milli,etnik,dil və dini azlıqlara mənsub olan şəxslərin hüquqları haqqında 1992-ci il Bəyannaməsi və s.) beynəlxalq konfransların aktları (məs,30 senryabr 1990-ci il tarixdə Uşaqlar naminə yüksək səviyyədə Ümumdünya görüşü zamanı qəbul olunmuş Uşaqların yaşaması, müdafiəsi və inkişafının təmin edilməsi haqqında Ümumdünya Bəyənnaməsi; İnsan hüquqları üzrə Ümumdünya Vyana Konfransınada (14-25 iyul 1993-cu il) qəbul olunmuş Vyana Bəyannaməsi və Hərəkət Proqramı və s.); ATƏM (indikiATƏT) çərçivəsidə qəbul olunmuş və özündə siyasi öhdəliklər ehdiva edən sənədlər və b.Bu sənədlərdə həm bütövlükdə insan hüquqlarının müdafiəsi, həm də konkret insan hüquqlarının həyata keçirilməsi ilə bağlı tövsiyyə xarakterli standartlar müəyyən olunur. Adətən bu standartları dövlətlər öz qanunvericiliyinə daxil edirlər(1, s. 79)

İnsan və vətəndaş hüquqları dövlətin hər bir insan qarşısında eyni dərəcədə daşıdığı vəzifələrdir. Məsələn, insanın təhsil hüququ təhsil sistemi yaratmağa və həmin sistemi dəstəkləməyə dövləti məcbur edir. Yaxud insanın məhkəmə təhqiqatı hüququ dövləti hər kəsin şikayətlə müraciət edə biləcəyi məhkəmə sistemi yaratmağa məcbur edir. Vətəndaş azadlıqları şəxsi həyatımızla bağlı olaraq, dövlət qarşısında qoyulmuş qadağalardır.

İnsan hüquqları 2 qrupa ayrılır: a) maddi hüquqlar b) prossesual hüquqlar.
Maddi hüquqlar- insana məxsus olan bir çox hüquq və azadlıqlardır ki, buraya fikir azadlığı, vicdan azadlığı və seçki azadlığı daxildir. Prossesual hüquqlar- insana məxsus hərəkət üsulları və onlarla bağlı olan məhkəmə, prokurorluq institutlarını əhatə edir ki, həmin institutların köməyi ilə insan ədalətin bərpasına nail olur, cinayət etməkdə ittiham olunarkən hakimiyyət qarşısında öz hüquqlarını müdafiə edir.

İnsan hüquqlarının ən sadə təsnifatı onların vətəndaş, siyasi, iqtisadi, sosial və mədəni hüquqlara ayrılmasıdır. 1966-ci ildə BMT dünyanın bütün ölkələrinə ratifikasiya edilmək üçün, yəni həmin ölkələrin qanunverici orqanları tərəfindən təsdiq edilmək üçün iki sənəd göndərdi.1) Siyasi hüquqlar və vətəndaş hüquqları haqqında konvensiya. 2) İqtisadi, sosial və mədəni hüquqlar haqqında konvensiya.

Adətən səsvermə hüququ, seçmək və seçilə bilmək hüququ, siyasi qərarların qəbul edilməsi və həyata keçirilməsində müxtəlif yollarla iştirak etmək hüququ siyasi hüquqlara aid edilir. Məsələn Qədim yunanlar öz rəhbərlərinin seçilməsində iştirak edir, iqtisadi və siyasi inkişaf üzrə mühüm məsələlərə səs verir, bir qayda olaraq fərdi vergilərdən çəkinir, dövlətin xeyrinə könüllü ianə verməyin lehinə çıxış edirdilər. Afina sisteminə görə vətəndaşlarla digərləri arasında, siyasi hüquqları olanlarla olmayanlar arasında fərq qoyulurdu (7, s. 172).

Vətəndaşlıq-insanın müəyyən dövlətə vətəndaş olmağını bildirən elə hüquqi statusdur ki, vətəndaşın dövlət qanunları ilə qorunduğu və həmin dövlətin qanunlarına riayət etməli olduğunu bildirir. Vətəndaşlıq mənsubiyyəti heç də milli mənsubiyyətlə eyni deyil. Vətəndaşlıq anlayışı çox vaxt dövlətlə fərd arsındakı hüquqi əlaqə, bir-birinə tərəfkeş olmağın qarşılıqlı öhdəliyi kimi izah olunur. Hər dövlət ona vətəndaş olmağın şərtlərini özü müəyyən edir. Bununla yanaşı, dövlət, vətəndaşlıq məsələlərinə münasibətini müəyyən edərkən, beynəlxalq normalarla hesablaşmalıdır.Həmin normaları görmək üçün beynəlxalq norma və konvensiyalara nəzər salmaq kifayətdir.

İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Konvensiya təhsil, sosial yardım, tibbi xidmət, mənzil və işə təminat verən idealları əhatə edir. Konvensiya haqqında danışılan mədəni hüquqlar incəsənət, ədəbiyyat, musiqi və s. mənada deyil, milli , dini və s. cəmiyyətlər yaratma hüququ kimi başa düşülür. Bu hüquqları çox vaxt inkişafın, sivil cəmiyyətə doğru irəliləmənin meyarı hesab edirlər. Bundan əlavə, adətən millətlərin, milli azlıqların, etnik qrupların mövcud olmasını səciyyələndirən milli ənənələrin, mədəniyyətlərin qorunub inkişaf etdirilməsi hüququ da mədəni hüquqlara aid edilir.

İnsanın mənəvi aləminin inkişafına zəmin yaradan hüquqları mədəniyyət hüquqları adlandırmaq qəbul olunmuşdur. Bu o hüquqlardır ki, onların sayəsində insan öz xalqının və dünyanın başqa xalqlarının mədəniyyətini qavramaq imkanında olur. Bütün başqa vacib məsələlərdə olduğu kimi, bu məsələlərdə də hər şey təhsildən başlayır. İnsan nə qədər dərin savad alarsa, daha mədəni olar, özünün mədəniyyət hüquqlarından daha dolğun faydalanar.Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 26-cı maddəsində deyilir ki, ibtidai və ümumi təhsil pulsuz olmalıdır. Lakin buna qanun səviyyəsində riayət etmək, dövlətin öz öhdəsinə nəhəng maliyyə öhdəlikləri alması deməkdir.

İqtisadi hüquqlardan söhbət gedərkən, ilk növbədə tətil hüququ nəzərdə tutulur. Tətillərin sayəsində çox vaxt əmək haqqı xeyli artırılir, Əmək şəraitinin yaxşılaşdırılması məsələsində güzəştlər əldə edilir. Beynəlxalq əmək Təşkilatı bəzən mövcud hökumətə mənfi münasibət bəsləsə də, hökuməti devirməyə yönəlmiş tətilləri müdafiə etmir.

Əksər ölkələrdə yaşayış minimumu təmin etmək üçün kifayət olan minimum əmək haqqına dair qanun mövcuddur. Lakin bir çox halda dövlətlər işçilərinin tələbatını ödəyə bilmirlər, çünki ölkə iqtisadiyyatı böhran vəziyyətindədir. Belə hallarda aztəminatlı adamlara və yoxsullara müavinət verilir. Bəzi dövlətlər əmək haqqının artımını təmin edə bilmir və bunun əvəzinə yaşayış üçün ən vacib olan şeyləri – mənzilləri, yeyinti məhsullarını, təhsili, tibb xidmətini pulsuz ya da çox ucuz etməklə əhali üçün təminat sistemi yaradır.

Sosial hüquqlar təhsil, incəsənət, ədəbiyyat sahəsində cəmiyyətin potensial imkanlarının inkişafı və eləcə də, cinsinə, yaşına, ailə vəziyyətinə, milliyyətinə görə ayrı-seçkiliyə yol verilməməsini təmin etməklə bağlıdır. Belə ayrı-seçkilik mürəkkəb formalar ala bilər. Ən çox cinsə və yaşa görə ayrı-seçkilik halları mövcuddur, bu da o deməkdir ki, ən çox uşaq və qadınların hüquqları pozulur. Misal üçün dünyada qadınların vəziyyətinə nəzər yetirək: ən demokratik ölkələrdə belə qadınların əmək haqqı kişilərin əmək

haqqında aşağıdır, ev işləri də əsasən qadınların üzərindədir. Çox vaxt qadınların ali təhsil, bəzi ölkələrdə isə orta təhsil almaq imkanı yoxdur. Bəzi ölkələrin qanunlarına görə qadınların vərəsəlik hüququ yoxdur,onların müəyyən peşələrə yiyələnməsinə sədd qoyulur. Qadınların hər cür diskriminasiyasının ləğv edilməsinə dair Konvensiya 1979-cu ildə qəbul edilib və 1981-ci il əksər ölkələr tərəfindən ratifikasiya edildikdən sonra qüvvəyə minib.

İqtisadi və sosial hüquqlara dair Ümumdünya İnsan Hüquqları Bəyənnaməsində bir sıra maddələr vardır. Həmin Bəyənnamənin 17-ci maddəsində Mülkiyyət hüququ qeyd olunur. Mülkiyyətçilik hüququ insanın öz əmlakına tam malik olmasına təminat verən hüquqdur. O, cəmiyyətin gücü və arxayınlığıdır, çünki mülkiyyətçi olandan sonra fərd özünü azad və müstəqil hiss edir. Bəyənnamənin 23-cü maddəsində əmək hüququ qeyd olunur. Əmək fərdi və ictimai rifahın əsasıdır.Bundan başqa istirahət, layiqli həyat səviyyəsi və təhsil hüququnu da qeyd etmək olar.

Insan hüquqlarının daha bir geniş yayılmış təsnifatı isə tarixi meyara əsaslanır. Söhbət fransız alimi K.Vasak tərəfindən irəli sürülmüş ***"insan hüquqlarının 3 nəsli konsepsiyasından"*** gedir. Bu konsepsiyaya görə hazırda mövcud olan bütün insan hüquqları öz inkişaf tarixində 3 mərhələ keçmişdir və bu mərhələlər əsasında 3 nəsil fərqləndirilir.

Birinci nəslə vətəndaş hüquqları və siyasi hüquqlar aiddir. Qərb ölkələrinin məşhur sənədlərində yalnız bu hüquqlar öz əksini tapmışdı. Bu hüquqlar aşağıdakılardır: yaşamaq hüququ, işgəncəyə və qeyri insani rəftara məruz qalmamaq hüququ, köləlikdə və asılı vəziyyətdə saxlanılmamaq hüququ, sərbəst hərəkət etmək hüququ, dövlət işlərinin aparılmasında iştirak etmək hüququ və s.

XX əsrin əvvələrində Meksikanın və Rusiyanın Konstitusiyalarında insan hüquqlarının ikinci nəsli- sosial-iqtisadi və mədəni hüquqlar ortaya çıxır və İkinci Dünya Müharibəsindən sonra isə bu hüquqlar bir sıra beynəlxalq müqavilələrdə (1961-ci il Avropa Sosial Xartiyasında, İqtisadi, sosial və mədəni hüquqlar haqqında 1966-cı il Beynəlxalq Paktında və s.) ayrıca təsbit olunur. Burada söhbət aşağıdakı hüquqlardan gedir: işləmək hüququ, həmkarlar ittifaqları yaratmaq hüququ, tətil hüququ, sosial təminat hüququ, minimal həyat səviyyəsi hüququ və s.

Üçüncü nəslin yaranması son dövrün inkişaf xüsusiyyətləri ilə bağlıdır. Bu izaha görə indi obyektiv olaraq elə hüquqlar meydana gəlmişdir ki, onlar ayrılıqda fərdə və ya fərdlər qrupuna yox, bütövlükdə məcmuya, xalqa məxsusdur: məsələn, inkişaf hüququ, sülh hüququ, sağlam ətraf mühitdə yaşamaq hüququ və s. Bu hüquqlar kollektiv hüquqlar və ya həmrəylik hüquqları adlanır. Lakin göstərilən hüquqlar hələ tam formalaşmamışdır və onlar dəqiq normativ məzmuna malik deyildir. Məsələ burasındadır ki, bu hüquqları fərdin dövlətə qarşı subyektiv tələbi şəklində formulə etmək, demək olar ki, qeyri mümkündür. Məsələn inkişaf hüququnu və ya sülh hüququnu iddia qaydasında məhkəmədə necə müdafiə etmək olar? Hüquq yalnız o yerdə vardır ki, orada onun müdafiə qaydası vardır. İkinci bir tərəfdən, bu hüquqlar, prinsip etibarilə, ayrıca götürülmüş dövlətdə tam həyata keçirilə bilməz.

İnsan hüquqları içərisində habelə mütləq hüquqlar və dövlətlərin müəyyən hallarda geriyə çəkilə bildiyi hüquqlar fərqləndirilir. Mütləq hüquqlar o insan hüquqlarıdır ki, dövlət heç bir halda, o cümlədən fövqəlada vəziyyət şəraitində ondan geri çəkilə bilməz. Avropa İnsan Hüquqları Konvensiyasına görə, bu, aşağıdakı hüquqlardır: yaşamaq hüququ (maddə 2) işgəncələrə məruz qalmamaq hüququ (maddə 3) köləlikdə vəya asılılıqda saxlanılmamaq hüququ (maddə 4) və qanunsuz cəzaya yol verilməməsi hüququ ( maddə 7) (2., s.13)

## ƏDƏBIYYAT

1.H.Babaoğlu. İnsan Hüquqları və Azadlıqlar. B., 2006
2.İnsan hüquqlarının qorunması üçün Avropa mexanizmləri. "İnam" plüralzim mərkəzi. B., 2000
3. Z.Məmmədli, M.Musabəyov. Demokratiya Labirintləri. B., 2001
4. L.Levin. İnsan Hüquqları. B., 1999.
5. N.V.Davletşina, B.B.Kimlika, R.C.Klark, D.U.Rey Demokratiya: Dövlət və Cəmiyyət. B., 1999.
6. R.Dahl. Demokratiya Haqqında. B., 2004.

***Rəyçilər: s.e.n.H.B.Məmmədov, f.e.d.Z.Hacıyev.***
***BDU-nun Politologiya və sosiologiya kafedrasının 21 noyabr 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №05).***